# “Qiymət” poeması haqqında düşüncələr



*(Əvvəli ötən saylarımızda)*

Müdriklər insanı Allahın kitabı adlandırır. Əgər belədirsə, həyatın bütün həqiqətlərini, bütün müşküllərin sirlərini elə bu kitabdan öyrənmək olar. Şübhəsiz, Allahın kitabı olmaq adına layiq şəxslər cəmiyyətin işığıdır. Cəmiyyət belə insanların işığına yol gedir. «Ey insan, sən başdan-ayağa bir məna dənizisənsə, quruluq nəyinə gərəkdir? Təpədən-dırnağa varlıqdan ibarətsənsə, onda yoxluğa niyə can atırsan? Sən suyuşirinsən, gözəlsən. Hər cür xoş və gözəl cəhətin xəzinəsisən» (Mövlanə Cəlaləddin Rumi. Məsnəvidən seçmələr Bakı-2007, səh.72). Müasirimiz, yazıçı, poliqrafçı alim Şəddad Cəfərovun həyat yolunu izləmək bizə imkan verir ki, onu zəngin bir kitab kimi qavrayaq, təcrübəsindən, biliyindən, məsləhətlərindən faydalanaq. Çünki zaman ötdükcə zamanın müəllifi olan insan varlığına yığdığı həyat dərslərini özündən sonrakı nəsillərə ötürməklə Ulu Yaradan qarşısındakı borcunu vermiş olur. Düşünmək olar ki, «Qiymət» poemasının müəllifi də Şəddad Cəfərovun təbiətini yaxşı öyrəndiyindən onun bədii obrazını da kifayət qədər dolğunluqla işləyə bilib. Çünki əsər boyu biz həyatın axarında mənən ucalan insanı görürük. Ömür yolunu öyrənməklə həyatda qarşımıza çıxacaq çətinliklərin, müşküllərin sirlərini də mənimsəmiş oluruq.

Şəddad müəllimin təbiətindəki xeyirxahlıq, insansevərlik heç şübhəsiz ki, irsi keyfiyyət kimi nəsildən gəlir. Ancaq o qədər geni sağlam olanlar var ki, həyatın amansız maşını ağzında çeynənmiş olur. Ruhunun sağlam təbiətini qoruyub saxlaya bilmir. Yaxud düzgün qurulmayan tərbiyə, sağlam olmayan mənəvi mühitin saf toxumları da belə çürütmək gücündədir.

İlahi bir ənam kimi Tanrının qisməti olan ağılı, sağlam düşüncəni öyrəndiyi elmlər, mükəmməl yiyələndiyi sənəti, peşəsi ilə getdikcə cilalamaqla insanlar arasında həmişə seçilmiş, dəyərli bir istinad kimi qəbul olunmuşdur.

Təbii qarşılamaq lazımdır. Onsuz da həyat insana heç vaxt şahrah yol qismət eləmir. Şahzadələr özləri də atadan irs kimi qalmış taxt-taca sahib olmaq üçün ağıl, idrak və cəsarət sahibi olmalıdırlar. Əgər bu olmasa, zaman taxt-tacı ona ənam etməyəcəkdir. Bu yerdə anamın tez-tez işlətdiyi bir misalı yadıma düşür: Süleyman peyğəmbər deyərmiş ki, «oğul ağıllı olmayanda var-dövlət nökərə çatar».

Şəddad müəllimin zəhmətdən çəkinməməsi, təbiətindəki xeyirxahlıqlığı, peşəsinin sirlərini öyrənməyə sonsuz həvəsi onu işləyib, əməli fəaliyyət göstərdiyi mühitdə hamının sevimlisi etmişdir. Ancaq o, bu hörmət və nüfuzundan heç vaxt sui-istifadə etmir. Çünki insanlar ağıllı hesab elədiyi istinadlarından başqasının haqqını qamarlamaq kimi bir yaraşmaz keyfiyyət görərsə, ondan asanlıqla üz döndərərlər.

Şəddad müəllim bunları vaxtında dərk etmişdi. Onu da yaxşı başa düşmüşdü ki, babasına, atasına, bütün ailəsinə olmazın sitəmlər yaşadan insanları qisas üçün hədəf seçmək olmaz. Hətta belələri (onların nəsillərindən qalanlar) ən imkanlı vaxtında belə qarşısına çıxanda onlara hörmətlə yanaşmış, köməyə ehtiyacı olubsa, öz köməyini əsirgəməmişdir. Bu keyfiyyətləri də əsərdə müəllifin həssaslıqla verə bildiyini görməklə bunu elə əsl qiymət hesab etmək olar:

İnsanların təbiətində dəyişmələr olur. Bu dəyişmələr əsasən iki istiqamətdə özünü göstərir.

Birincisi, imkanlar artdıqca, vəzifə pillələrində böyüdükcə, cəmiyyətdə sözü eşidildikcə, nüfuzu keçərli olduqca... o, daha da təmkinli, müdrik olur. Qazandıqlarını - istər maddi, istərsə də mənəvi insanlardan gizləmir, onlarla səxavətlə bölüşür.

İkinci tip insanlar da var; onlar vəzifə pillələrində irəlilədikcə tünd-məcaz olur, sahib olduğunu insanlardan gizləyir. Allahın quru məsləhətini də onlardan əsirgəyir, nəyinki yıxılana əl tutmaq, kiməsə yardımçı olmaq... bunları heç yaxına buraxmır. Və bu yerdə də atamın çox işlətdiyi bir misal yadıma düşür: «məsləhətə xəyanət yoxdur». Yəni heç olmasa, insan gərək ağıllı məsləhəti məsləhətə ehtiyacı olandan əsirgəməsin:

Filosoflar deyirlər ki, axan suya bir dəfə baxmaq olar. Mənə elə gəlir ki, insanın həyatı da axar suya çox bənzəyir. Hansı cəhətdənsə yaxşı tanıdığımız bir şəxs dünənki deyil. Sabah da bugünkü olmayacaq. Şəddad Cəfərovun həyatı dəyişdikcə o, ömür yolunun çətinliklərindən keçdikcə hər kəsin yerini daha aydın görməyə başlayır. Davranışındakı sadəlik, təbiətindəki xeyirxahlıq ona imkan verirdi ki, tabeliyində olan, olmayan hər hansı bir şəxsin, hətta fikir ayrılıqları zamanı belə hər kəsin istəyini, istəyində nə dərəcədə haqlı olub-olmadığını vaxtında duya bilsin.

Müəllif bu məqamı onun «qulluq adamının da, adi bir işçinin də» kimliyini həssaslıqla dərk etməsini ali insani düşüncə sahibi kimi mənalandırır.

Tanıdığımız Ş.Cəfərov həyatı boyu zəhmətdən qorxmayıb. Hətta bu günün özündə belə, öz işinə son dərəcə məsuliyyətlə yanaşır. Ömrünün bu çağında belə səbəbsiz yerə iş buraxmır. Hətta yeri gələndə çapçının yanında dayanıb onun təcrübəsizliyini görəndə ona ata qayğıkeşliyi ilə diqqət göstərir, köməyini əsirgəmir. Bütün bunları o, varlığına bir dərs kimi, hələ aspirant olduğu zamandan yığıb. Kitab çapı işinin zamanın tələblərinə uyğunlaşması üçün Moskvanın, Avropanın kitab nəşrlərini öyrənib, qabaqcıl təcrübəyə sahiblənib. Elə bu səbəbdən də Azərbaycanda kitab çapı işinə çoxlu yeniliklər gətirib.

Şəddad müəllim bu gün də mətbəə işindədir. Azərbaycanın qabaqcıl çap işinin aparıcılarından biridir. Zəngin biliyinin, təcrübəsinin sayəsində kitab nəşrinə gətirdiyi yeniliklərlə heç vaxt öyünməyib. Amma yeri gələndə qürurlanıb, nailiyyətlərini özünün kimdənsə üstünlüyü kimi qəbul etməyib. Öz təcrübəsini çox böyük qəlbi açıqlıqla elmi məqalələr, monoqrafiyalar şəklində cəmiyyətlə paylaşıb. Onun naşir obrazı «Qiymət» poemasında da elə beləcə görünür.

Azərbaycanın görkəmli poliqrafçı alimini təkcə Azərbaycanda yox, Rusiyada, Moskva universitetlərində, Almaniya nəşriyyatlarında, ya mühazirə oxuyan, ya yeni texnologiyaları öyrənən mütəxəssis kimi görürük. O, təcrübələrini ümumiləşdirərək nəzəri nəticələrə çevirir. O vaxt üçün əlçatmaz olan Moskva mühitində poliqrafiya sahəsinə aid işləyib hazıladığı elmi nəaliyyətlərini dissertasiya kimi müdafiə edir.

Beləcə, biz əsərdə praktik kitab çapı işinin mütəxəssisindən başqa, həm də poliqrafiya elminin yeni dövrdə əsaslarını yaradan alimi görürük.

Şəddad Cəfərovun ziyalı fədakarlığı, Azərbaycan ziyalılarının əsərlərinin nəşri üçün xüsusi qayğıkeşliyi haqqında əvvəllər də danışmışıq. Onun orijinal xarakteri, təmənnasızlığı sayəsində kitabları çap olunan müəlliflərin, söz-sənət adamlarının diqqətini cəlb etməyə bilməzdi. Onlardan biri də Şəkər Aslan idi. O, Azərbaycanın görkəmli şairi idi. Sözün dəyərini bilən ustad sənətkar kimi Şəddat Cəfərovu təkcə özünə yox, elə bütün həmkarlarına simsar kimi görürdü. Müəllif də «Qiymət» poemasında məhz bunu yada salır:

Şəddadın uğuruna özündən çox sevindi
Dost-tanış, qohum-qardaş bu xəbəri alanda.
Ünvanına alqışlar gəldi yaxın-uzaqdan,
Şəninə şeirlər qoşdu şair Şəkər Aslan da.

Və biz «Qiymət» poemasında şəkər Aslanın Şəddad müəllimə olan münasibətini də müşahidə edirik. Bu münasibət ziyalını layiq olduğu mərtəbədə görməkdir. Onun dostcanlılığını, istiqanlılığını, söz-sənət adamlarının yaradıcılığına qayğıkeşliyini dəyərləndirmək münasibətidir. Şəkər Aslanın Şəddad Cəfərova həsr olunmuş gözəl, poetik örnəyini də poemadan təkrar oxuyuruq:

İndi o, artıq məşhur idi, tanınırdı, sevinirdi, Azərbaycanın ən görkəmli sənətkarları kitablarının çapına əngəl olanda, manеələr qarşılarını kəsəndə Şəddad müəllimə üz tuturdular. Ş.Cəfərov isə qazandığı bütün uğurları Azərbaycan ziyalıları ilə beləcə bölüşürdü:

Azərbaycanın mənəvi mühitinə iki istiqamətdən böyük axın var. Müstəqillik dövrünün azad bazar siyasəti qonşu ölkələrin, xüsusilə, İranın timsalında Şərqin və ikinci tərəfdən Avropanın dəyərləri Azərbaycanın mənəvi mühitinə çox sürətlə daxil olur. Biz bu iki istiqamətdən gələn axının ən üstün cəhətlərini qavramalıyıq və bu zaman görkəmli ziyalıların işığı qaranlıqlar içərisində həqiqəti görməyimizə kömək edər. Yəqin ki, bu işıqlı ziyalar arasında Şəddad müəllimin də nə qədər keçərli yeri olduğunu çoxları etiraf edər.

...Uil Dürant özündən əvvəlki filosofların düşüncələrini ümumiləşdirərkən Frensis Bekona da kifayət qədər yer ayırır. Onun “Həqiqət” adlı əsərindən bir parçanı xüsusilə diqqətə çəkir: “Həqiqəti tədqiq etmək, onu sevmək, qiymətləndirmək və onun nazını çəkməkdir. Həqiqətə inanmaq ondan zövq almaqdır. O, insan təbiətinin xeyirxah hökmdarıdır. Kitablarda biz müdriklərlə söhbət edirik. Həyatda isə axmaqlıqla. Əgər biz kitab seçməyi bacarsaydıq nə yaxşı olardı!”

Şəddat Cəfərov dövrümüzün həqiqətidir. Həqiqəti isə sevmək gərəkdir.

*(Davamı var)*